TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

# HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI

# DÖRDÜNCÜ İCLAS

# TÖVSİYƏ QƏRARI

## TÜRKPA Üzvü Ölkələrdə Seçkilər, Seçki Sistemləri və TÜRKPA Seçki Müşahidəsi Fəaliyyəti

**Parlament Assambleyas;**

*1)* Seçkilərin demokratiyanın ən əsas alət və göstəricilərindən biri olduğu anlayışını *qeyd edərək;*

2) Seçmə və seçilmə hüququnun başlıca əsas hüquq və azadlıqlar arasında yer aldığı *şüuru ilə*;

3) Seçki müşahidə fəaliyyətlərinin ölkələrin demokratikləşmə proseslərinə böyük ölçüdə töhfə verdiyi *inancı ilə;*

4) TÜRKPA üzvü ölkələrdə həyata keçirilən seçkilərin və tətbiq olunan seçki sistemlərinin beynəlxalq standartlara uyğunluğunu *təqdir edərək;*

5) TÜRKPA üzvü ölkələri arasında seçki sistemi və qanunvericiliklərinə aid məlumat və təcrübə mübadiləsinin əhəmiyyətini *vurğulayaraq;*

6) Keçiriləcək seçkilərin xalqın ədalətli təmsilinin zəmanət altına alınması və rəhbərlikdə sabitliyin təmin edilməsi prinsiplərinə riayət edilərək reallaşdırılması zərurətini *nəzərə alaraq*;

7) TÜRKPA seçki müşahidə fəaliyyətlərinin kəmiyyət inkişafından duyulan *məmnuniyyəti ifadə edərək;*

8) Seçki müşahidə fəaliyyətlərinin əhatəsinin genişləndirilməsi və standartlarının inkişaf etdirilməsinin vacibliyi *vurğulayaraq;*

9) Seçki qanunvericiliyinin inkişaf edən demokratiya standartlarına uyğun və ölkələrin siyasi strukturlarına müvafiq şəkildə təşkil edilməsi və həyata keçirilməsinə dəstək olma məqsədiylə TÜRKPA seçki müşahidəsi fəaliyyətlərinin institutlaştırılması və davam etdirilməsinin təmin edilməsi ehtiyacını *xatırladaraq*;

10) Milli parlamentlərə tövsiyə qərarı olaraq;

**i.**Üzv ölkələr arasında seçki qanunları və sistemlərinin inkişaf etdirilməsi və qarşılıqlı məlumat və təcrübələrin mübadiləsi baxımından əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini *vurğulayır*;

**ii.**Yüksək Seçki Şurası / Mərkəzi Seçki komissiyaları arasında təmasların artırılması, bilik və təcrübələrin paylaşılmasına yönəlik ortaq fəaliyyətlərin təşkilinin vacibliyinə *diqqət çəkir*;

**iii.**Üzv ölkələrin seçki qanunvericiliyinin uyğunlaşdırılması və inkişaf etdirilməsi sahəsində alim, araşdırmaçı və bürokratların iştirakı ilə ekspert iclasları, seminarlar, konfranslar və toplantılar təşkilini *təşviq edir*;

**iv.**Seçki müşahidə fəaliyyətlərinin davam etdirilməsinin ölkələrin inkişaf edən demokratik prinsiplərə adaptasiyasını asanlaşdıracağını *xatırladır;*

**v.**Seçki müşahidə fəaliyyətlərinin standartlarının müəyyənləşdirilməsi və institutlaşdırılması baxımından mövzuyla bağlı digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən idarəetmə və standartların araşdırılaraq lazımlı işlərin görülməsini *təklif edir;*

**vi.**Seçki müşahidə fəaliyyətlərini icra edən digər təşkilatlarla ortaq fəaliyyətlərin təşkilinin bilik və potensialının inkişafı baxımından faydalı olacağını *bəyan edir;*

**vii.**Seçki müşahidəsi fəaliyyətlərinin üzv ölkələrdən başqa müşahidəçi statusundakı və ya digər ölkələrdə də həyata keçirilməsini *dəstəkləyir*;

**viii.**Seçki müşahidə fəaliyyətlərinin standartlarının müəyyənləşdirilməsi və institutlaşdırılması məqsədiylə TÜRKPA Katibliyi koordinasiyasında lazımlı işlərin görülməsinə *çağırır*.